**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО - ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

*На правах рукописи*

**ОРУДЖЕВ ЭМИЛЬ ВИДАДИ оглы**

# ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ СИСТЕМЫ НАЦИОНАЛЬНОЙ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

**Специальность: 5312.01 – "отраслевая экономика"**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по экономике**

**БАКУ-2018**

**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI ELMİ – TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ORUCOV EMİL VİDADİ oğlu**

# MİLLİ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN İNKİŞAFININ İQTİSADİ ASPEKTLƏRİ

**İxtisas: 5312.01 – "sahə iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R AT I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Balayev Rəsul Ənvər oğlu**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Alıyev İsa Hüseyn oğlu**

iqtisad üzrə fəlsəfə doktoru
**Əliyev Sahib Bayram oğlu**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Aqrar Universiteti

Müdafiə "______".__________2018-ci ildə saat ____ -da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N. Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________ 2018-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru:** **V.R.Rzayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı çoxaspektli və mürəkkəb problemdir. Qloballaşan və maliyyə böhranının təəssüf ki, az qala davamlı şəkil olduğu müasir dünyada ərzaq təhlükəsizliyinin müxtəlif səviyyələrdə təminatının iqtisadi problemləri daha çox diqqət tələb edir. Hər bir ölkə ərzaq təhlükəsizliyinin təminatı üçün torpaq - iqlim şəraitindən tutmuş geosiyasi vəziyyətə qədər bütün amilləri hərtərəfli təhlil edərək əsaslandırılmış qərar qəbul etmək, eyni zamanda dinamik surətdə dəyişən iqtisadi şəraitə uyğun onları mütəmadi korrektə etmək məcburiyyətindədir. Digər tərəfdən kənd təsərrüfatı məhsulları istehsalının intensivləşməsi və aqroemal proseslərinin, xammaldan istifadə baxımından dərinləşdirilməsi əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı kontekstində aqrar-ərzaq bölməsinin dayanıqlı inkişafı məsələlərinin əhəmiyyətini daha da artırmışdır. Odur ki, ərzaq təhlükəsizlyinin təminatının sosial, iqtisadi və ekoloji problemlərin kompleks araşdırılması obyektiv zərurətə çevrilmişdir.

Ərzaq təhlükəsizliyinin təminatı probleminin müxtəlif aspektləri araşdırılsa da, dünyanın yeni iqtisadi nizamının təşəkkül tapdığı hazırki dövrdə milli ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminin kompleks halında kifayət qədər tədqiq olunduğunu söyləmək çətindir. Belə ki, ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminə münasibətlərdə fikir ayrılıqları o qədər güclənmişdir ki, mövcud vəziyyəti yeni paradiqma axtarışları dövrünün başlanğıcı da hesab etmək olar.

Müasir dövrdə digər mürəkkəb və dinamik sistemlərə münasibətdə olduğu kimi, ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminin məcmu səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllində də riyazi üsul və modellərdən istifadə edilməlidir. Belə ki, milli ərzaq təhlükəsizliyinin təminatının "yol xəritəsini" məhz müasir riyazi üsulların tətbiqi sayəsində hazırlamaq mümkündür. Bu məqsədlə, ilk növbədə aqrar-ərzaq bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələləri həll edilməlidir. Möcud vəziyyəti, bu baxımdan da qənaətbəxş hesab etmək çətindir.

Milli ərzaq təhlükəsizliyinin təminatı aqrar-ərzaq bölməsində və burada təmsil olunan qurumlarda innovasiya fəallığı səviyyəsi ilə bilavasitə əlaqədardır. Buna baxmayaraq ölkədə ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminin innovasiyalara açıqlıq

dərəcəsi arzu olunan səviyyədə deyildir. Odur ki, ərzaq təhlükəsizliyinin səmərəli iqtisadi sisteminin qurulmasında innovasiyalı inkişaf amilinin yeri və rolu hərtərəfli qiymətləndirilməli, innovasiya fəallığının yüksəldilməsinin nəzəri- metodoloji və təcrübi məsələləri tədqiq olunmalıdır.

Qeyd edilən problemlər, milli ərzaq təhlükəsizliyi sisteminin inkişafının iqtisadi aspektlərini ön plana çıxarmaqla, müvafiq tədqiqatların kompleksliyinin təmin olunmasını tələb edir. Onu da qeyd etmək vacibdir ki, təqdim edilən dissertasiyanın mövzusu Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş 1.2.2- ci tədbir "Əhalinin bütün qruplarının ərzaq təminatının yaxşılaşdırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi" (hədəf 1, prioritet 1.2) çərçivəsində həll edilməli olan məsələlərə həsr olunmuşdur.

Qeyd olunanlar dissertasiya işinin mövzusunun aktual olduğunu söyləməyə əsas verir.

**Problemin öyrənilməsi vəziyyəti.** Ərzaq təhlükəsizliyinin təminatının və aqrar-ərzaq bölməsinin inkişafının elmi – nəzəri və metodoloji – təcrübi məsələləri Səmədzadə Z.Ə. Alıyev İ.H., Ataşov B.X., Abbasov A.F., Balayev R.Ə., Salahov S.V., İbrahimov İ.H., İsgəndərov R.K., Qarayev İ.Ş., Qasımov Ə.C., Hüseynov M.C., Verdiyev Ə.Ç, Əliyev S. B və Azərbaycanın bir sıra digər iqtisadçı alimləri tərəfindən araşdırılmış, müvafiq aktual problemlərin həlli üçün mühüm elmi-nəzəri müddəalar əsaslandırılmış, elmi-praktiki əhəmiyyətə malik təkliflər irəli sürülmüşdür.

Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sistemini tədqiq edən xarici ölkə alimləri sırasında Газизов Р. М., Гончаров В. В., Косинский П.Д., Крылатых Э. Н., Медведев А.В., Плугов А.Г., Popov N.A., Serova E.B. Зеркалов Д.В. və başqaları xüsusi qeyd olunmalıdır. Həmin müəlliflərin əsərlərində ərzaq təhlükəsizliyinin təminatı sisteminin, ərzaq bazarının inkişafının aktual məsələləri, onların tənzimlənməsi problemləri tədqiq olunmuşdur.

Qeyd edilən alimlərin əsərlərində kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və milli ərzaq təhlükəsizliyinin təmin edilməsinin müxtəlif aspektləri tədqiq olunsa da, onlar bilavasitə milli ərzaq təhlükəsizliyi sisteminin inkişafının iqtisadi



**Çapa imzalanıb 19. 03. 2018**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun "Elmi əsərlərinin" buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**

**Orujov E.V.**

## Economic aspects of the development of the national food security system

## SUMMARY

The proposed dissertation consists of an introduction, three chapters, conclusions and the list of used literature. In the introduction, the relevance of the topic is substantiated, the degree of study of the problem is assessed, the purpose and objectives of the study are determined, the scientific novelty, the practical and theoretical significance of the work are stated.

In the first chapter, the essence of food security, the conceptual framework and the primary results of the search for a new paradigm are revealed. The processes of formation of the system of food security are studied, the economic development environment of this system is characterized. The best practices of solving economic problems in ensuring food security are estimated.

In the second chapter, the issues of information and methodological support for the development of the agro-industrial sector were explored. The current state of ensuring food security of the country is characterized. The level of development of the agro-industrial sector is estimated. The economic environment of ensuring national food security is described.

In the third chapter, the priorities of the innovative development strategy of the agro-industrial sector are justified. The main elements of the road map for ensuring food security in Azerbaijan are identified. Some directions of improving the system of state regulation of food provision for the population are justified.

In the final part of the dissertation, the results and proposals for improving the efficiency of the national food security system are formulated.



aspektlərini kompleks surətdə araşdırmağı və ərzaq təhlükəsizliyinin təminatı üzrə iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi problemlərinin həllini öz qarşılarına məqsəd qoymamışlar. Odur ki, milli səviyyədə ərzaq təhlükəsizliyinin iqtisadi sisteminin və aqrar-ərzaq bölməsinin dayanıqlı inkişafı baxımından səmərəliliyinin yüksəldilməsi, həmin inkişafın iqtisadi-riyazi modelləşdirilməsinin metodiki və informasiya təminatının yaxşılaşdırılması, ölkənin ərzaq təhlükəsizliyinin təminatının "yol xəritəsinin" hazırlanması kimi aktual məsələlər öz həllini tapmamışdır.

**Tədqiqatın məqsədi** - ərzaq təhlükəsizliyinin təminatının iqtisadi aspektlərini araşdırmaqla, əlverişli mühit yaradan amillərin pozitiv təsirinin artırılması imkanlarını aşkara çıxarmaqla, milli ərzaq təhlükəsizliyinin iqtisadi sisteminin səmərəliliyinin yüksəldilməsinə dair təklif və tövsiyələri əsaslandırmaqdır.

Bu məqsədlə aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

- milli ərzaq təhlükəsizliyi sisteminin nəzəri-metodoloji əsaslarının araşdırılması, sistemin inkişafının iqtisadi mühitinin səciyyələndirilməsi;
- ərzaq təhlükəsizliyinin təminatı sisteminin iqtisadi səmərəliliyini şərtləndirən amillərdən istifadənin xarici təcrübəsinin təhlili;
- aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsinin metodiki və informasiya təminatının araşdırılması;
- aqrar-ərzaq bölməsinin inkişafı səviyyəsinin və milli ərzaq təhlükəsizliyi sisteminin səmərəliliyinin qiymətləndirilməsi;
- əhalinin ərzaqla təminatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi mexanizmi hazırlanmışdır;
- aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının ərzaq təhlükəsizliyinin təminatı səviyyələrinə uyğun prioritetlərinin əsaslandırılması.

**Tədqiqatın obyektini** ərzaq təhlükəsizliyinin təminatı üzrə istehsal və xidmət fəaliyyəti göstərən, aqrar-ərzaq bölməsinə daxil olan təsərrüfatçılıq qurumları təşkil edir.

**Tədqiqatın predmeti** milli ərzaq təhlükəsizliyinin təminatında aqrar-ərzaq bölməsinin fəaliyyətinin iqtisadi mühiti, həmin fəaliyyətin səmərəliliyini müəyyənləşdirən amillər, onların təsirini şərtləndirən qanunauyğunluqlardır.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Azərbaycanın və bir sıra xarici ölkələrin iqtisadçı alimlərinin ərzaq təhlükəsizliyinin təminatı və kənd təsərrüfatının, ümumilikdə aqrar-ərzaq bölməsinin

inkişafı problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar, hökumətin qərarları və digər normativ sənədlər götürülmüşdür.

Tədqiqatın metodoloji əsasını sivil bazar münasibətlərini, ərzaq məhsullarının istehsalı, emalı və satışı üzrə fəaliyyətlərin iqtisadi mühitinin xarakteristikalarını, ərzaq təhlükəsizliyinin təminatı üzrə müxtəlif fəaliyyət növlərinin tənzimlənməsi sisteminin səmərəliliyini əks etdirən müddəalar təşkil etmişdir.

İşdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, Dövlət Statistika Komitəsinin, müvafiq elmi-tədqiqat institutlarının normativ-arayış sənədləri müxtəlif təsərrüfat formalarının fəaliyyətinin iqtisadi nəticələrini əks etdirən məlumatlar istifadə edilmişdir.

Tədqiqat prosesində sistemli və müqayisəli təhlil, ümumiləşdirmə və bir sıra digər iqtisadi - statistik üsullardan istifadə olunmuşdur.

**İşin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- milli ərzaq təhlükəsizliyi sistemini formalaşdıran əsas amillərin şərtləndirdiyi iqtisadi mühit səciyyələndirilmiş, yeni paradiqma axtarışlarının zəruriliyi əsaslandırılmışdır;
- iqtisadi mühitinin imkanlarını reallaşdıran təsərrüfatçılıq mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir;
- inteqral funksiyası milli ərzaq təhlükəsizliyinin təminatına xidmət etməkdə olan aqrar-ərzaq bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin adekvat metodiki və informasiya təminatının formalaşdırılmasının üsul və vasitələri müəyyənləşdirilmişdir;
- Azərbaycanın ərzaq təhlükəsizliyi sistemi və aqrar-ərzaq bölməsi hərtərəfli səciyyələndirilmiş, müvafiq iqtisadi mühitin inkişafı meyilləri aşkar edilmişdir;
- milli ərzaq təhlükəsizliyinin təminatının qəbul olunmalı olan "yol xəritəsinin" strukturu və əsas elementləri müəyyən edilmişdir;
- əhalinin ərzaqla təminatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr hazırlanmış;
- ərzaq təhlükəsizliyinin təminatı səviyyələri nəzərə alınmaqla aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının prioritetləri əsaslandırılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti**. Əldə edilmiş nəticələr, əsaslandırılmış müddəa və təkliflər aqrar-ərzaq bölməsinin milli ərzaq



**Оруджев Э.В.**

**Экономические аспекты развития системы национальной продовольственной безопасности**

## РЕЗЮМЕ

Предлагаемая диссертация состоит из введения, трех глав, выводов, списка использованной литературы. Во введении обоснована актуальность темы, оценена степень изученности проблемы, определены цель и задачи исследования, изложена научная новизна, практическая и теоретическая значимость работы.

В первой главе раскрыта сущность продовольственной безопасности, концептуальные основы и первичные результаты поиска новой парадигмы. Исследованы процессы формирования системы продовольственной безопасности, характеризована экономическая среда развития данной системы. Оценен передовой опыт решения экономических проблем по обеспечению продовольственной безопасности.

Во-второй главе, исследованы вопросы информационного и методического обеспечения развития агропромышленного сектора. Охарактеризовано сложивщееся состояния обеспечения продовольственной безопасности страны. Оценен уровень развития агропромышленного сектора. Охарактеризована экономическая среда обеспечения национальной продовольственной безопасности.

В третьей главе обоснованы приоритеты и стратегии инновационного развития агропромышленного сектора. Определены основные элементы «дорожной карты» обеспечения продовольственной безопасности в Азербайджане. Обоснованы некоторые направления совершенствования системы государственного регулирования продовольственного обеспечения населения.

В заключительной части диссертации формулируются результаты и предложения по повышению эффективности системы национальной продовольственной безопасности.

Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri dərc edilmişdir:

1. Ərzaq təhlükəsizliyi: mahiyyət və yeni paradiqma axtarışları. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri № 3 , Bakı - 2015, s. 26-33;

2. Milli ərzaq təhlükəsizliyi sisteminin inkişafının iqtisadi mühitinin xarakteristikası. Azərbaycan Aqrar Elmi № 4, Bakı - 2015, s. 153-158.

3. Aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının prioritetləri. AMEA İqtisadiyyat İnstitutu Elmi əsərlər № 2, Bakı - 2016, s. 154-160.

4. Aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələləri. Azərbaycan Kooperasiya Universiteti, № 1 (40), Bakı - 2016, s. 86-92.

5. Ərzaq təminatının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun "Azərbaycan Torpaq İslahatı-20: Nailiyyətlər və perspektivlər" mövzusunda ümumrespublika elmi-praktiki konfransın materialları, Bakı - 2016, s. 262-264.

6. The main elements of «the roadmap» of food security provision. Проблемы развития АПК региона научно-практический журнал Дагестанского Государственного Аграрного Университета имени М.М. Джамбулатова, Махачкала - 2016 с. 176-180.



təhlükəsizliyi sisteminin tələblərinə uyğun inkişafını şərtləndirən amillərin təsirini qiymətləndirməklə, həmin sistemin səmərəliliyinin yüksəldilməsinə imkan verir.

İrəli sürülmüş təklif və tövsiyələr ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminin kifayət qədər sıx qarşılıqlı əlaqəli əsas komponentlərinin, ərzaq təhlükəsizliyinin təminatı üzrə müxtəlif fəaliyyət növlərinin tənzimlənməsi prioritetlərinin əsaslandırılmasının və reallaşdırılmasının səmərəliliyini yüksəldə bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Əsaslandırılmış nəzəri müddəalar və tədqiqatın nəticələri 2012-2016-cı illərdə beynəlxalq, ümumrespublika və digər səviyyələrdə keçirilmiş konfrans və seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir.

Dissertasiyanın işinin əsas nəticələri Kürdəmir rayon Aqrar Elm Və İnformasiya Məsləhət Mərkəi tərəfindən qənaətbəxş hesab edilmiş və milli ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsində və müvafiq təkliflərin hazırlanmasında istifadə üçün qəbul edilmişdir (23.11.18-ci il tarixli, №06 saylı arayış).

Dissertasiya işinin mövzusu tədqiqat aparıldığı dövrdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi – Tədqiqat İqtisadiyyat İnstitutunda tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuş, aktual problem kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə edilmişdir.

**Tədqiqatın nəticələri üzrə dərc olunmuş materiallar.** Dissertasiya işinin mövzusu üzrə müəllifin ümumi həcmi. 4 çap vərəqi olan 6 elmi məqaləsi və tezisi çap olunmuşdur.

**Dissertasiyaların quruluşu və həcmi.** İş giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 131 səhifədir. İşdə 14 cədvəl və 3 şəkil, 122 adda istifadə olunmuş ədəbiyyat siyahısı verilmişdir.

## MÜNDƏRİCAT

**GİRİŞ............................................................................3**

**FƏSIL I. MİLLI ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİSTEMİ, ONUN MAHİYYƏTİ, FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ.....................................................................9**

1.1. Ərzaq təhlükəsizliyi: mahiyyət, konseptual əsaslar və yeni paradiqma axtarışları..................................................9

1.2. Milli ərzaq təhlükəsizliyi sisteminin təşəkkülü və inkişafının iqtisadi mühitinin xarakteristikası..................21
1.3. Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həlli üzrə qabaqcıl təcrübə.........................33

**FƏSİL 2. AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN FORMALAŞMASI VƏ AQRAR-ƏRZAQ BÖLMƏSİNİN İNKİŞAFININ MÖVCUD SƏVİYYƏSİ.......44**
2.1. Aqrar-ərzaq bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələləri........................................................................44
2.2. Ölkədə ərzaq təhlükəsizliyinin təminatı vəziyyətinin və aqrar-ərzaq bölməsinin inkişafı səviyyəsinin qiymətləndirilməsi...........................................................55
2.3. Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi mühitinin xarakteristikası...................................................................73

**FƏSIL 3. MİLLİ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATININ İQTİSADİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ....................................................86**
3.1. Aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının ərzaq təhlükəsizliyinin təminatı səviyyələrinə uyğun prioritetləşdirilməsi...............................................86
3.2. Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatının "yol xəritəsinin" əsas elementləri.............................................97
3.3. Əhalinin ərzaqla təminatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi.........................................108
**Nəticə .......................................................................................118**
**İstifadə olunmuş ədəbiyyat siyahısı......................................123**

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti qiymətləndirilmiş, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri – metodoloji əsasları, informasiya bazası şərh olunmuşdur. Burada tələblərə uyğun olaraq elmi yenilik, tədqiqatın təcrübi əhəmiyyəti, onun nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi vəziyyəti şərh edilmişdir.

**"Milli ərzaq təhlükəsizliyi sistemi, onun mahiyyətı, formalaş-**



səmərəliliyinin monitorinqi, subsidiyalaşdırma proseslərinin zaman və məkan parametrlərinin optimallaşdırılması, həmin proseslərin tam şəffaflığının təmin edilməsi; istehsalçıların əsasən birbaşa məsrəflərinin bir hissəsinin dövlətin öz üzərinə götürməsini nəzərdə tutan güzəştlərin hərtərəfli əsaslandırılmasının və ünvanlığının birmənalı təminatı; mütərəqqi aqrotexnologiyaların, o cümlədən, artıq genişlənməkdə olan tirəli əkin və sıfır becərmə texnologiyalarının tətbiqinin iqtisadi-texnoloji xarakteristikalarının işlənib hazırlanması; torpağın münbitliyinin qorunması və bərpası tədbirlərində dövlət-özəl bölmə tərəfdaşlığı mexanizminin təkmilləşdirilməsi; informasiya–məsləhət xidmətinin, istehsalçıların innovasiya ehtiyaclarının nəzərə almaqla keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi, istehsalçının bazarın müvafiq seqmenti və potensial xarici rəqiblər barədə məlumatlandırılması sisteminin inkişafı; aqrar istehsal və emal müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, müvafiq proseslərinin intensivləşdirilməsinin stimullaşdırılması hesabına aqrar-ərzaq bölməsinə investorların marağının artırılması və investisiya proseslərinin stimullaşdırılması; istehsal və sosial infrastruktur şəbəkəsinin inkişaf, resurs və istehsal potensialının təşəkkülü səviyyəsi, xarici ticarətin liberallıq və vergi-gömrük rejiminin istehsalçı nöqteyi-nəzərindən əlverişlilik dərəcəsi, əhalinin alıcılıq qabiliyyəti və bu kimi bir sıra amillər nəzərə alınmaqla investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi; sahədə investisiya fəaliyyətinin stimullaşdırılması üçün optimal qiymətqoyma, sığorta və kredit mexanizminin, modernləşdirilmənin prioritetliyini nəzərə alan amortizasiya siyasətinin formalaşdırılması; idxalın əvəzlənməsindən ixracın təşviqi rejiminə keçidin sürətləndirilməsi proseslərinin idarə olunması; itkilərin minimumlaşdırılmasına sistemli yanaşmanın, başqa sözlə, bioloji məhsuldan son istehlakçıya çatana qədərki yolda baş verən itkilərlə bərabər, dövriyyə vəsaitlərinin aşağı sürəti səbəbindən istehsalçının məruz qaldığı itkiləri nəzərə alan yanaşmanın təkmilləşdirilməsi; investisiya mühitinin yüksək ehtimallı risklərdən sığortalanması sisteminin səmərəliliyinin yüksəldilməsi; investisiyaların kreditləşdirilməsi qərarlarının hazırlanması prosesində investisiya cəlbediciliyi və fəallığını xarakterizə edən göstəricilərin monitorinqi; ərzaq məhsulları xarici ticarətində tranzaksiya xərclərinin aşağı salınması məqsədilə tədbirlərin kompleksliyinin təmin edilməsi.

rüfatında intensiv inkişafa ayrılan vəsaitin, onlardan mükəmməl istifadə mexanizminin mövcudluğu halında özünü doğrultduğu nəzərə alınmalıdır. Əks halda, intensivləşmənin stimulları tənzimləmənin digər sistemləri ilə üzvi vəhdət təşkil etməyə bilər.

Ərzaq təhlükəsizliyinin təminatı üzrə fəaliyyətin tənzimlənməsi sistemində qiymət tənzimlənməsinin rolu gözlənildiyinin əksinə olaraq artmaqdadır. Konkret halda qiymət tənzimlənməsi kənd təsərrüfatı məhsulları bazarına müdaxilənin səmərəliliyi, artıq qeyd olunduğu kimi rəqabət mühitinə mənfi təsirinin minimumlaşdırılması imkanları nəzərə alınmaqla müəyyən edilməlidir. Bu məsələnin praktiki həlli topdan və pərakəndə satış qiymətlərinin tərəddüdünün yuxarı və aşağı hədlərinin təyin edilməsi, dövlətin dəstəklədiyi şərti və indikativ qiymətlərin müəyyən olunması və bu kimi bir sıra digər mərhələlərin rəqabət mühitinin xarakteristikalarının monitorinqi ilə müşayiət olunmasını tələb edir.

Əhalinin ərzaqla təminatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi imkanlarından bəhs edərkən, zənnimizcə aşağıdakı məsələyə diqqət yetirilməlidir. Milli ərzaq təhlükəsizliyinin təminatı baxımından ölkədaxili regionlar arasında funksional bölgünün həyata keçirilməsi zamanı müqayisəli üstünlüklər və onların gerçəkləşdirilməsi imkanları qiymətləndirilməlidir. Məhz həmin qiymətləndirmənin nəticələrindən istifadə etməklə ərzaq təhlükəsizliyi fəaliyyətinin xəritələşdirilməsi parametrlərini təshih etmək mümkündür.

Ərzaq təhlükəsizliyinin təminatı sistemində texnoloji, təşkilatı və sosial xarakterli innovasiya proseslərinin iqtisadi səmərəliliyini müəyyənləşdirmək üçün, məlum olduğu kimi universal alqoritm və reallığı obyektiv əks etdirə bilən informasiya təminatı yoxdur. Odur ki, aqrar-ərzaq bölməsində inkişafın stimullaşdırılması mexanizminin səmərəliliyinin mütəmadi qiymətləndirilməsi üçün idarəetmə, texnoloji və digər xarakterli innovasiyaların yaranması və yayılması ssenarilərinin hazırlanmasına ehtiyac yaranır. Praktikada həmin ssenarilərin işlənib hazırlanması və reallaşdırılması ənənəvi yanaşmalardan tutmuş süni intellektual sistemlərə, o cümlədən ekspert qiymətləndirmələrinə qədər kifayət qədər geniş spektrli alət və vasitələrdən istifadəni nəzərdə tutur.

Ərzaq təhlükəsizliyinin təminatı proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi prioritetlərinə, habelə aşağıdakıları aid etmək olar: dövlət dəstəyi tədbirlərinin aralıq və son nəticələrinin



**ması və inkişafının nəzəri-metodoloji məsələləri" adlı birinci fəsildə** ərzaq təhlükəsizliyinin mahiyyəti açıqlanmış, ərzaq təhlükəsizliyinin təminatının konseptual əsasları və yeni paradiqma axtarışlarının ilkin nəticələri açıqlanmış, milli ərzaq təhlükəsizliyi sisteminin təşəkkülü prosesləri tədqiq olunmuş, həmin sistemin inkişafının iqtisadi mühiti xarakterizə edilmişdir. Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həlli üzrə qabaqcıl təcrübələr araşdırılmış və qiymətləndirilmişdir.

Müasir anlamda ərzaq təhlükəsizliyi dedikdə, əksər hallarda insanların fəal və sağlam həyat tərzi keçirmək üçün kəmiyyət və keyfiyyət baxımından kafi, təhlükəsiz ərzaq məhsullarına fiziki və iqtisadi baxımdan əlyetərliyi başa düşülür. Terminoloji məqamlardakı ziddiyyətləri bir kənara qoyaraq, qeyd edək ki, sosial-ekoloji və bəşəriyyət üçün aktual olan bu kimi bir sıra digər problemlərin həllində bazar münasibətlərinin imkanlarının məhdudluğu dövlətin tənzimləyici rolunu artırmaqla yanaşı, təmzimləyici təsirlər kompleksinin arealının optimalllaşdırılması məsələlərini gündəlikdə saxlayır.

Ərzaq təhlükəsizliyinin təminatına münasibətdə yeni paradiqma axtarışları, mühit yaradan digər amillərlə yanaşı, ərzaq təhlükəsizliyinin təminatına münasibətdə ekoloji reqlamentləşdirilmiş innovasiyalı inkişafın bütün arsenalını hərəkətə gətirməlidir. Əks halda, aqrar-ərzaq bölməsinin inkişafının dayanıqlığı özünün ilkin, daha doğrusu həqiqi mənasında təkcə konsepsiya olaraq qala bilər. Unutmaq olmaz ki, ərzaq təhlükəsizliyi və onun təminatına yeni yanaşmaların zəruriliyi, biomüxtəlifliyi, torpaq və su resurslarının mövcud vəziyyəti, ətraf mühitdə baş verən proseslərlə, habelə insan ekologiyasına dair hipotezlərin, ideyaların, yanaşmaların və əlbəttə standartların dəyişməsi ilə şərtlənir.

Milli ərzaq təhlükəsizliyi sisteminin təşəkkülü və inkişafının iqtisadi mühitinin imkanlarını reallaşdıran iqtisadi təsərrüfatçılıq mexanizminin təkmilləşdirilməsi prioritetlərinə aşağıdakıları aid etmək olar: bazarın tələblərini nəzərə alaraq aqrar-ərzaq bölməsində geniş təkrar istehsal üçün əlverişli iqtisadi şəraitin təmin edilməsi; aqrar-ərzaq bazarında ərzaq təhlükəsizliyi və rəqabət tələblərinə əməl edilməsi üçün zəruri təşkilati-iqtisadi şəraitin yaradılması; daxili istehsalçıların xarici bazara çıxışı və bu çıxışın asanlaşdırılması üçün, transaksion məsrəflərin minimumlaşdırılmasını nəzərdə tutan əlverişli təşkilati-iqtisadi şəraitin yaradılması; sahədə innovasiya fəallığının, innovasiyalı-intensiv inkişafın əsasən

iqtisadi motivləri gücləndirmək yolu ilə dəstəklənməsi. Sadalanan prioritetlər aqrar-ərzaq bazarı bölməsinin iqtisadi təsərrüfatçılıq mexanizminin digər sahələrarası komplekslərdən fərqli olaraq, malik olduğu aşağıdakı özünəməxsus cəhətlərini nəzərə almaqla reallaşdırılmalıdır: sahələrarası kompleksin aparıcı komponentinə davamlı dövlət himayəsinin göstərilməsi; burada təkrar istehsalın təbii amillərdən güclü asılılığı və bu asılılıqdan irəli gələn yüksək risk ehtimalı; aqrar və aqroemal sahələrində özəl bölmənin üstünlük təşkil etməsi; aqrar sahənin çoxfunksiyalı olması.

Milli ərzaq təhlükəsizliyi sisteminin təşəkkülü və inkişafının iqtisadi mühitinin formalaşmasında dövlət tənzimlənməsi və dövlət-özəl bölmə tərəfdaşlığı alt sistemlərinin təkmilləşdirilməsinin perspektivli istiqamətlərinə aşağıdakılar aid edilə bilər: kənd təsərrüfatı istehsalına enerji məsrəflərinin subsidiyalaşdırılması; aqrolizinq xidmətinin çeşidinin genişləndirilməsi; dotasiyaların vasitəçilərdən (gübrə, texnika satıcıları və i.a.) bilavasitə istehsalçılara, istehsalın nəticələri nəzərə alınmaqla verilməsi; güzəştli kreditləşmə sisteminin dövlət büdcəsinə təzyiqinin məqbul səviyyəsində iqtisadi fəallığın yüksəldilməsi meyarı üzrə optimallaşdırılması; aqrar-ərzaq bölməsində rəqabət mühitinə ciddi neqativ təsirləri istisna edən zəmanətli satın-almalar sisteminin formalaşdırılması; yüksək səmərəli aqrotexnologiyaların işlənib hazırlanması üzrə fundamental tədqiqatların tamamilə büdcədən maliyyələşməsi; yüksək keyfiyyətli toxum və damazlıq heyvanların istehsalı və onun elmi təminatının tamamilə büdcədən maliyyələşdirilməsi.

Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həllində qabaqcıl təcrübədən istifadə prosesi, məlum olduğu kimi ölkələrarası oxşarlıq və funksional analogiyalar müstəvisində qiymətləndirmələrə, habelə ölkədə formalaşmış təsərrüfatçılıq sisteminin yeniliklərə açıqlıq imkanlarına əsaslanmalıdır. Təbii ki, bu zaman, yanaşmaların kompleksliyi və zəruri olduqda qiymətləndirmələrin təkrar yoxlanması təmin edilməlidir. Eyni zamanda onu da qeyd edək ki, ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həllində ölkələrarası oxşarlıq və funksional analogiyalar məsələləri araşdırılarkən çoxmeyarlı yanaşma üsullarından, ehtimallı və parametrik proqramlaşdırma elementlərindən istifadə məqsədəuyğundur.

Milli ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həlli proseslərinin səmərəliliyi dövlətin tənzimləyici tədbirlər sisteminin



**Cədvəl 6.**

**Ərzaq təhlükəsizliyinin təminatının "yol xəritəsi"nin bəzi xarakteristikaları**

| Fəaliyyətin planlaşdırılması | Təminat alt sistemləri | Səviyyələr | Xəritənin formalaşmasında mühüm rol oynayan elementlər |
|---|---|---|---|
| elmi planlaşdırma; texnoloji planlaşdırma; məhsul planlaşdırılması; imkanların planlaşdırılması; inteqrasiyanın planlaşdırılması; bilavasitə icranın planlaşdırılması və s. | informasiya, institusional, hüquqi,kadr, riyazi-proqram və s. | xarici mühit üzrə, aqrar-ərzaq bölməsi üzrə, aqrar-ərzaq bölməsində təmsil olunan müəssisələr üzrə | rəqabət mühitinin zaman və məkan xarakteristikaları; yerli istehsalçıların rəqabət üstünlüklərinin gücləndirilməsinin üsul və vasitələri; informasiya-analitik xidmətlərin, hərracların və digər bu kimi qurumların mühit yaradan komponentləri; məhsulların keyfiyyətinə nəzarət mexanizminin komponentləri; milli ərzaq təhlükəsizliyinin təminatında regional fərqlərin və onlar arasında əmək bölgüsünün əsas parametrləri; bazarda tarazlı qiymətlərin dəstəklənməsinin üsul və vasitələri; milli aqrar-ərzaq bölməsində investisiya fəallığının təşviqi vasitələri və i.a. |

Hazırda ərzaq təhlükəsizliyinin təminatı üzrə iqtisadi fəaliyyətlərin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi baxımından aşağıdakı tədbirlər prioritet olmalıdır: aqrar-ərzaq bölməsində təmsil olunan qurumların, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalı subyektlərinin gəlirliyinin dəstəklənməsi və onların gəlirlərinin sığortalanması sisteminin səmərəliliyinin yüksəldilməsi; əsas ərzaq məhsulları üzrə təminatın fasiləsizliyi və ahəngdarlığının təmin edilməsi meyarlarına uyğun ehtiyatların yaradılması, saxlanması və istifadəsi; toxumçuluğun inkişafının iqtisadi stimullaşdırılması sisteminin təkmilləşdirilməsi; kənd təsərrüfatının çoxfunksiyalılığının, o cümlədən kənd ərazilərində qeyri-kənd təsərrüfatı gəlirlərinin təşviqi; ətraf mühitin qorunması və aqrar-ərzaq bölməsində investisiya siyasətinin vahid müstəvidə hazırlanması və həyata keçirilməsi və i.a.

Ərzaq təhlükəsizliyinin təminatı proseslərinin tənzimlənməsi intensiv inkişaf tələblərinə uyğun olmalıdır. Bu zaman kənd təsər-

Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatının “yol xəritəsinin” formalaşdırılmasında həlledici rola malik əsas elementlərə aşağıdakılar aid edilməlidir: aqrar- ərzaq sektorunda inkişaf etmiş rəqabət mühitinin təşəkkülünün zaman və məkan xarakteristikaları; yerli istehsalçıların daxili və xarici bazarların müvafiq seqmentlərində rəqabət üstünlüklərinin aşkar edilməsi, reallaşdırılması və onların gücləndirilməsinin üsul və vasitələri; zəruri atributlara malik hərracların, informasiya-analitik xidmətlərin və bu kimi bir sıra digər institutların inkişafının mühit yaradan komponentləri; kənd təsərrüfatı məhsullarının və həmin mənşəli emal məhsullarının yeridilişinin səmərəli sisteminin qurulması üçün məhsulun keyfiyyətinə nəzarətin ciddi və səmərəli mexanizminin komponentləri; kənd təsərrüfatı məhsullarının emalı proseslərinin stimullaşdırılmasının üsul və vasitələri; milli ərzaq təhlükəsizliyinin təminatında ölkədə regional fərqlərin və onlar arasında əmək bölgüsünün əsas parametrləri; kənd təsərrüfatı məhsulları istehsalı və aqroemal müəssisələrinin assosiasiyalarla birgə fəaliyyətin təşkilatı təminatı; aqrar-ərzaq bazarında tarazlı qiymətlərin dəstəklənməsinin üsul və vasitələri; milli aqrar-ərzaq sektorunda investisiya mühitinin yaxşılaşdırılması, bu sektorun strateji əhəmiyyətli sahələrdə (taxılçılıq, südlük heyvandarlıq və onun məhsullarının emalı və s.) investisiya fəallığının yüksəldilməsi, ixracyönlü, yüksək texnoloji istehsalın tam tsiklinin prioritet investisiyalaşdırılmasına keçidin təşviqi vasitələri; maliyyə vasitəçiliyi institutlarının aqrar-ərzaq sektorunun tələblərini nəzərə alan şəbəkəsinin formalaşdırılması mərhələlərinin xarakteristikaları; əhalinin ödəniş qabiliyyətli tələbinin yüksəldilməsi, kənddə məşğulluğun səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatı istehsalçılarının gəlirlərinin dəstəklənməsi mexanizmləri; daxili bazarın qorunması və yerli istehsalın dəstəklənməsinin metodiki və informasiya təminatı; bioloji məhsuldan başlayaraq son istehlakçıya çatdırılmış məhsula qədər ərzaq məhsullarının yeridilişində kəmiyyət və keyfiyyət itkilərin azaldılması vasitələri; kənd təsərrüfatı istehsalçılarının və aqroemalçıların risklərinin sığortalanması; aqrar-ərzaq bazarında dövlət satınalmaları sisteminin əsas elementləri; istehsalçılarla emalçılar və satış qurumları arasında hərtərəfli əsaslandırılmış qarşılıqlı faydalı müqavilələr. Bu halda həmin müqavilələrin bağlanması və onların icrası zamanı bütün şərtlərə istisnasız olaraq əməl edilməsi nəzərdə tutulur (cədvəl 6).



xarakterindən asılıdır. Müvafiq tənzimləyici tədbirlər kənd təsərrüfatı məhsullarının istehsalı və satış üzrə bütün əsas aspektləri əhatə etməklə, ərzaq təhlükəsizliyi sisteminin səmərəli və ahəngdar fəaliyyətinə xidmət edir. İnkişaf etmiş ölkələrin, o cümlədən ABŞ, Kanada və Avropa Birliyinə daxil olan ölkələrin bu baxımdan təcrübəsi xüsusi diqqətə layiqdir.

Hazırda əksər ölkələrdə milli ərzaq təhlükəsizliyi sisteminin səmərəli fəaliyyətində bazar avtomatizminin və dövlət tənzimləməsinin oynadığı rollara ayrı-ayrılıqda deyil, birgə baxılması halları üstünlük təşkil edir. Qloballaşma dövründə milli ərzaq təhlükəsizliyi sistemlərinin fəaliyyətinin təhlili göstərir ki, həmin fəaliyyətin məcmu səmərəliliyində qiymət tənzimləməsinin artan rolu baş verir. Özü də bu rol iqtisadi aspektlə yanaşı, sosial aspektdə də özünü əyani surətdə büruzə verməkdədir. Belə ki, aqrar-ərzaq bazarında qiymət sabitliyinə xidmət edən qiymət tənzimləməsinin, sosial, o cümlədən məşğulluq tələblərinə də cavab verməli olduğu, bir çox tədqiqatçılar üçün artıq diskussiya obyekti deyildir.

İnkişaf etmiş ölkələrin əksəriyyətində və bir sıra inkişaf edən ölkələrdə qiymətlərdə rentabellik normasının səviyyəsinin məhdudlaşdırılması təcrübəsi aşağıdakı qaydada aparılır. Aqrar-ərzaq məhsullarının rentabellik səviyyəsi müəyyən edilərkən: istehsalçı müəssisəyə dövlət zəmanəti ilə verilmiş kreditlərin hesabına qoyulmuş investisiyaların ödənilməsini təmin etməli olan məbləğ hesablanmalı; həmin məbləğ ödənildikdən sonra, sosial qiymətlər nəzərə alınmaqla müvafiq düzəlişlər aparılmalıdır. Azərbaycanda da istehsalçı qiymətlərinin tənzimlənməsini həyata keçirən Tarif Şurası öz fəaliyyətində analoji metodikaya əsaslanır. Ərzaq təhlükəsizliyinin təminatının iqtisadi problemlərinin həllində, o cümlədən aqrar sahəyə yönəldilən güzəştli kreditlər hesabına daxili istehsalın artırılması üzrə qabaqcıl təcrübə xüsusi diqqətə layiqdir. Məsələ ondadır ki, aqrar-ərzaq bölməsində fəaliyyətin imtiyazlı kreditləşdirilməsi dövlət büdcəsi hesabına baş verirsə, müvafiq təcrübədə bu halda ərzaq təhlükəsizliyi sisteminin səmərəliliyinin yüksəldilməsi və bu məqsədlə dövlət xərclərinin artımı templəri müqayisəli qiymətləndirilməlidir. Postsovet ölkələrində bu baxımdan müəyyən müsbət nəticələr əldə edilmişdir. Həmin nəticələr, əsasən son bir neçə il istisna olmaqla ərzaq təhlükəsizliyi sisteminə dövlət xərclərinin azaldılmasında ifadə olunmuşdur.

Milli ərzaq təhlükəsizliyi sisteminin səmərəliliyinin ərzaq məhsullarının qiymətlərinin tənzimlənməsi hesabına yüksəldilməsi, daha dəqiq desək mal dövriyyəsinin tənzimlənən qiymətləri müxtəlif istehlakçı qrupları üzrə fərqləndirməklə, həmin sistemin fəallığının stimullaşdırılması təcrübəsi, indiyə qədər həyata keçirilmiş araşdırmalardan göründüyü kimi, əsasən ölkənin kifayət qədər yüksək inkişaf səviyyəsinə çatması, başqa sözlə əhalinin yüksək rifahı halında məqbul hesab olunur.

**"Azərbaycanın ərzaq təhlükəsizliyi sisteminin formalaşması və aqrar-ərzaq bölməsinin inkişafının mövcud səviyyəsi" adlı ikinci fəsildə** aqrar-ərzaq bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələləri tədqiq olunmuş, ölkədə ərzaq təhlükəsizliyinin təminatı vəziyyəti xarakterizə olunmuş və aqrar-ərzaq bölməsinin inkişafı səviyyəsi qiymətləndirilmişdir. Fəslin sonunda ərzaq təhlükəsizliyinin təminatının iqtisadi mühitinin xarakteristikası verilmişdir.

Aqrar-ərzaq bölməsində baş verən proseslərin təhlili, proqnozlaşdırılması və idarə edilməsi üçün iqtisadi-riyazi modellərin ən geniş çeşidinin (balans, ekonometrik, şəbəkə, imitasiya, kütləvi xidmət sistemləri, optimallaşdırma) tətbiqi tövsiyə edilir. Belə ki, həmin bölmənin mürəkkəb və dinamik sistemlərə xas olan cəhətləri burada həm nəzəri-analitik, həm də tətbiqi iqtisadi-riyazi modellərin dinamik və statik variantda birgə istifadəsini mümkün edir. Araşdırmalar həmin modellərin qısa, orta və uzunmüddətli dövr üçün aqrar-ərzaq bölməsinin inkişafının proqnozlaşdırılması və planlaşdırılmasına imkan verdiyini söyləməyə kifayət qədər əsas verir.

Son tədqiqatlarda aqrar-ərzaq bölməsinin fəaliyyəti və inkişafının təhlili, proqnozlaşdırılması və idarə edilməsində - aqrar-sənaye kompleksinin (ASK) makroiqtisadi modelinə əsaslanan yanaşmanın (bu halda aşağıdakı modellərin sistem əmələ gətirməsi nəzərdə tutulur: əhalinin ərzaq məhsullarına tələbi modeli, ASK- nın fəaliyyət bloku modelləri, xarici iqtisadi əlaqələr blokuna aid ərzaq məhsulları ixracı modeli, dövlət tənzimlənməsi bloku modelləri və aqrar bazarın ümumi tarazlığı modeli) tətbiqinin; imitasiya və optimallaşdırma modellərindən ibarət hibrid modelin tətbiqinin perspektivli olması barədə əsaslandırmalar məqbul hesab edilməlidir (cədvəl 1).

Aqrar-ərzaq kompleksi, aqrar-ərzaq bölməsi və əsasən regional səviyyədə fəaliyyət göstərən aqrar-ərzaq klasterlərinin formalaşması



institusional təminatinin yaxşilaşdirilmasi; əsas ərzaq məhsullarının əlyetərliyi və ekoloji təhlükəsizliyi səviyyəsinin yüksəldilməsi; fəaliyyət planı; institutsional dəstək; monitorinq və qiymətləndirmə.

Aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının, xarici təcrübədən göründüyü kimi ərzaq təhlükəsizliyinin təminatı səviyyələrinə müvafiq olaraq aşağıdakı mərhələlərlə həyata keçirilməsi məqsədə uyğundur (cədvəl 5):

**Cədvəl 5.**

**Ərzaq təhlükəsizliyinin təminatı səviyyələrinə müvafiq olaraq aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının həyata keçirilməsi mərhələləri**

| Mərhələlər | Mərhələlərin məzmunu |
|---|---|
| I | İstehsalın azalmasının və maddi-texniki bazanın köhnəlməsinin qarşısının alınması, aqrar-ərzaq bölməsinin bazar tələblərinə uyğunlaşdırılması kimi operativ tədbirlər hesabına ərzaq təhlükəsizliyin təmin edilməsi |
| II | Yerli istehsal hesabına kənd təsərrüfatı mənşəli xammal və ərzaq məhsullarının həcminin dinamik artımı və daxili bazarda tələb-təklif nisbətinin tarazlaşdırılması sayəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi |
| III | Aqrar- ərzaq bölməsinin innovasiyalı inkişafı və idxal-ixrac fəaliyyətinin əsas parametrlərinin optimallaşdırılması sayəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi |

Ölkənin aqrar-ərzaq bölməsinin inkişafında ixrac yönümü təşviq edilməlidir.

Ərzaq təhlükəsizliyinin təminatını yaxşılaşdırmaq üçün qəbulolunacaq "yol xəritəsi" infomasiya, institusional, hüquqi, kadr, riyazi-proqram təminat alt sistemlərinin qurulmasını nəzərdə tutmalıdır. Sadalanan təminat alt sistemlərinin qarşılıqlı əlaqəli və ahəngdar fəaliyyətinin prioritetlərinin əsaslandırılması, tətbiq olunan informasiya sistemlərinin ekspertiza olunması, ərzaq təhlükəsizliyi sisteminin iştirakçılarının müəyyənləşdirilməsi və bu kimi bir sıra digər mərhələlər xəritələşdirmə prosesinin əsasında durmalıdır. Milli ərzaq təhlükəsizliyinin təminatının "yol xəritəsi", kənd təsərrüfatının çoxfunksiyalılığı və inteqrasiya imkanları nəzərə alınmaqla aşağıdakı üç səviyyə üzrə fərqləndirilməlidir: xarici mühit üçün "yol xəritəsi"; aqrar - ərzaq sektoru üçün "yol xəritəsi"; aqrar-ərzaq sektorunda fəaliyyət göstərən (istehsal, emal, təchizat və digər profilli) müəssisələr üçün "yol xəritəsi".

Müasir dövrdə innovasiyalı inkişafda hər hansı ciddi addım kollektiv səylərin və korporativ maraqların reallaşdırılmasının nəticəsi olmaqla, dövlət-özəl bölmə tərəfdaşlığının daha çevik formalarının axtarılıb tapılmasını tələb edir. Aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının reallaşdırılması mühitinin aşağıdakı meyarlarla qiymətləndirilməsini məqsədəuyğun hesab edirik: insanların fizioloji tələbatının qida rasionunun energetik normativlərə uyğunluğu dərəcəsi; müxtəlif əhali təbəqələrini üçün ərzaq məhsullarının fiziki (ərzaq resurslarının mövcudluğu) və iqtisadi (rasional qidalanma üçün vəsaitin mövcudluğu) əlyetər-liyinin səviyyəsi; strateji və operativ ərzaq ehtiyatlarının ərzaq məhsullarına olan tələbat normativlərinə uyğunluğu; ölkənin ərzaq məhsulları və onların komponentlərinin idxalından asılılığı dərəcəsi.

Aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının aşağıdakı strukturu tövsiyə edilir: - aqrar-ərzaq bölməsinin fəaliyyətin məqsədi, vəzifələri (əlverişli və dayanıqlı iqtisadi mühitin yaradılması; təsərrüfatçılıq subyektləri üçün bərabər imkanların təmin edilməsi; səmərəli aqrar siyasətin həyata keçirilməsi; əhalinin ərzağa tələbatının dinamikasına uyğun təminatın həyata keçirilməsi; məşğulluq səviyyəsinin yüksəldilməsi və onun strukturunun yaxşılaşdırılması üzrə prioritet istiqamətlərin, sahə xüsusiyyətləri daha tam nəzərə alınmaqla əsaslandırılması; bölmənin dayanıqlı inkişafını təmin edən investisiya siyasətinin həyata keçirilməsi; ərzaq məhsulları bazarında fövqəladə situasiyalarda tənzimləmə mexanizminin təkmilləşdirilməsi; ərzaq məhsulları istehsalında yerli imkanlardan istifadənin artırılması, aqrar-sənaye inteqrasiyasında texnoloji innovasiyaların rolunun yüksəldilməsi; kənd təsərrüfatı məhsulları istehsalı, emalı və saxlanması proqramlarının hazırlanması və reallaşdırılması; ərzaq məhsulları ixracı və idxalının optimallaşdırılması, beynəlxalq əmək bölgəsinin üstünlüklərindən istifadə); bölmədə təmsil olunan istehsal və xidmət subyektlərinin fəaliyyətinin strateji təhlili; informasiya təminatı və istehsalçılara məsləhət xidmətlərinin səviyyəsi; innovasiyalara açıqlıq; strategiyanın reallaşdırılması mühitinə tələblər; aqrar-ərzaq bölməsinin potensial funksiyalarını şərtləndirən qlobal çağırışlar; bölmənin dayanıqlı inkişafını təmin edən prinsiplər; prioritet hesab edilən strateji istiqamətlər; strategiyanın həyata keçirilməsi üçün yerinə yetirilməli vəzifələr; müxtəlif ölçülü təsərrüfatçiliq subyektlərinin dəstəklənməsi yolu ilə kənd təsərrüfati istehsalinin bölməsinin və



və inkişafın modelləşdirilməsində modellər sisteminin tətbiqi perspektivli istiqamət hesab edilməli, haqqında danışılan modellər sistemində fəaliyyət istiqamətləri və səviyyələr üzrə qarşılıqlı əlaqələr isə təkcə məhdudiyyət şərtlərində deyil, habelə məqsəd funksiyaları və imitasiya ssenarilərinin prioritetləri arasında da təmin edilməlidir.

**Cədvəl 1.**

**Aqrar-ərzaq bölməsinin təhlili, proqnozlaşdırılması və idarə edilməsi üçün tövsiyə edilən sistem əmələ gətirən modellər**

| Hibrid modellərinə əsaslanan sistem | ASK –nın makroiqtisadi modelinə əsaslanan sistem |
|---|---|
| imitasiya modelləri | əhalinin ərzaq məhsullarına tələbi modeli |
| | ASK- nın fəaliyyət bloku modelləri |
| optimallaşdırma modelləri: | Xarici iqtisadi əlaqələr blokuna aid ərzaq məhsulları ixracı modeli |
| -statik modellər | Sahənin dövlət tənzimlənməsi bloku modelləri |
| - dinamik modellər | Aqrar bazarın ümumi tarazlığı modeli |

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasında "Ərzaq məhsullarının tədarükü və təchizati" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Açıq Səhmdar Cəmiyyətinin ərzaq məhsullarının istehsalçılarından və satıcılarından ərzaq məhsulları alması və tədarük edərək satınalan təşkilatlara təqdim etməsi nəzərdə tutulur. Müvafiq proseslərin icrası zamanı şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyalarının geniş istifadəsi həyata keçirilməlidir.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatı vəziyyətini qiymətləndirmək və aqrar-ərzaq bölməsinin inkişafı səviyyəsini səciyyələndirmək üçün, zənnimizcə ilk növbədə kənd təsərrüfatı

istehsalı proseslərində təbii resurslardan istifadə səmərəliliyinin qənaətbəxş olub-olmaması məsələsinə aydınlıq gətirilməlidir.

Ölkə əhalisinin artımı, qeyri-kənd təsərrüfatı obyektlərinin genişlənməsi, torpaqların eroziyaya uğraması (dağlıq ərazilərdə torpaqların 40 faizə qədəri eroziyaya uğramışdır), şoranlaşması (suvarılan əkin sahələrinin təqribən 46%-i müxtəlif dərəcədə şoranlaşmışdır) meliorativ tədbirlərin qeyri-qənaətbəxş olması və bu kimi bir sıra digər səbəblərdən adambaşına düşən əkin sahəsi azalır. Belə ki, adambaşına 1959-cu ildə 0,36 hektar əkin sahəsi düşürdüsə, 2016-cı ildə 0,18 hektar təşkil etmişdir.

Özəl bölmənin kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi 99,0 faizdən çoxdur. Ölkədə aqrar islahatlar başlayandan sonra 1992-2016-cı illər ərzində əsas kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artmışdır. Bu müddət ərzində dənli bitkilər istehsalı 3,3 dəfə, tərəvəz istehsalı 3,0 dəfə, kartof istehsalı 5,5 dəfə, meyvə istehsalı 2,7 dəfə, bostan məhsulları istehsalı 11,5 dəfə, süd istehsalı 2,3 dəfə, ət istehsalı 2,7 dəfə, yumurta istehsalı 3,4 dəfə artmışdır. Beləliklə, əsas kənd təsərrüfatı məhsulları istehsalı üzrə müsbət dinamika davamlı xarakter almışdır.

Milli ərzaq təhlükəsizliyinin təminatı üzrə fəaliyyətinin əsas istiqaməti ölkə əhalisinin taxıla olan tələbatının yerli istehsal hesabına ödənilməsidir. Son bir neçə ildə təbii-iqlim şəraitinin əlverişsiz keçməsinə baxmayaraq, həyata keçirilən kompleks xarakterli tədbirlər nəticəsində 2010-2016-cı illər ərzində Azərbaycanda buğda istehsalı 41,5% artmışdır. 2010-2016-cı illər üzrə ilin əvvəlinə qalıqların müqayisəsi, müvafiq göstərici üzrə 2,9% azalmışdır.

İndi isə ərzaq təhlükəsizliyinin təminatında strateji rol oynayan buğda ehtyatlarını və ondan istifadə mühitini formalaşdıran amillərin struktur aspektlərinə münasibət bildirmək lazımdır. İlk növbədə onu qeyd edək ki, 2007-2014-cü illər ərzində həm ilin əvvəlinə və həm də sonuna qalığın əhəmiyyətli dərəcədə artması baş vermişdir. Təhlil dövründə idxalın xüsusi çəkisinin daxili istehsalın xüsusi çəkisi ilə müqayisəsi 2016-cı ildə sonuncunun üstülük təşkil etdiyini göstərir. Belə ki, 2016-cı ildə cəmi ehtiyatların 37,9%-i istehsal, 37,1%-ini isə idxal hesabına formalaşmışdır (cədvəl 2). Halbuki, 2010-cu ildə cəmi buğda ehtiyatlarının 36,3%-i daxili istehsalın, 38,0%-i isə idxal hesabına formalaşmışdı.

Dənli bitkilərin xeyli hissəsi kənd təsərrüfatı heyvanları və quşlarının yemləndirilməsinə, daha doğrusu onlar üçün qarışıq yemlərin hazırlanmasına sərf olunur. Təhlil edilən dövrdə Azərbaycanda



burada təmsil olunan istehsal və xidmət subyektlərinin fəaliyyətinin səmərəliliyi, investisiya cəlbediciliyinin səviyyəsi, investisiya proseslərinin tempi və miqyasının optimallaşdırılması imkanları və investisiya mühitini formalaşdıran bu kimi bir sıra digər amillər mühüm rol oynayırlar. Ölkənin kənd təsərrüfatında 2000-2016-cı illər ərzində əsas kapitala investisiyalar 50 dəfə, sahədə ümumi məhsulun miqdarı isə 5,1 dəfə artmışdır(cədvəl 4).

**Cədvəl 4.**

**Azərbaycanın kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşu**

| | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2010 | 2015 | 2016 |
| Kənd təsərrüfatında əsas kapitala investisiyalar, (milyon manat) | 6,5 | 40,7 | 431,0 | 355,4 | 325,1 |
| Artım, dəfə: 2000-ci ilə nisbətən | 1 | 6,3 | 66,3 | 54,7 | 50,0 |
| Əsas kapitala investisiyaların ümumi məbləğində xüsusi çəkisi, %-lə | 0,7 | 0,7 | 4,4 | 2,2 | 2,1 |
| Kənd təsərrüfatında ümumi məhsul, (milyon manat) | 1112 | 1845 | 3878 | 5635 | 5632 |
| Artım, dəfə: 2000-ci ilə nisbətən | 1 | 1,7 | 3,5 | 5,1 | 5,1 |

**Mənbə:** Cədvl müəllif tərəfindən hesablanmışdır. Mənbə: Azərbaycanın kənd təsərrüfatı, Bakı, 2015, s. 52, 56; Azərbaycanın kənd təsərrüfatı, Bakı, 2017, s. 53

Kənd təsərrüfatında əsas kapitala investisiyaların əsas kapitala investisiyaların ümumi məbləğindəki xüsusi çəkisi təhlil dövründə artaraq 0,7%-dən 2,1% -ə çatmışdır.

**“Milli ərzaq təhlükəsizliyinin təminatının iqtisadi sisteminin təkmilləşdirilməsi” adlı üçüncü fəsildə** aqrar-ərzaq bölməsinin innovasiyalı inkişafı strategiyasının ərzaq təhlükəsizliyinin təminatı səviyyələri nəzərə alınmaqla prioritetləri əsaslandırılmış, Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatının yaxşılaşdırmaq üçün qəbul edilməli olan“yol xəritəsinin” əsas elementləri müəyyən edilmişdir. Əhalinin ərzaqla təminatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır.

Aqrar-ərzaq bölməsinin inkişafının innovasiyalı variantı istehsal-texnoloji, seleksiya-genetik, təşkilati, iqtisadi-ekoloji xarakterli yeniliklərin optimal kombinasiyasını əhatə edir. Bu halda investisiya fəallığı, əsasən texnoloji inkişafın yüksək tempi ilə şərtlənir.

İqtisadi mühit elementləri arasında əlaqələrin istiqaməti (şərti olaraq şaquli, üfüqi əlaqələr) və xarakteri, həmin mühitin təşəkkülü və inkişafında həlledici rola malikdir. Şaquli əlaqələr, əhəmiyyətli dərəcədə təsərrüfatçılıq subyektinin sistemdaxili fəaliyyətinin xarakterini, üfüqi əlaqələr isə istehsal, xidmət, təchizat, satış, vasitəçilik qurumları arasında dəyər zənciri boyunca fəaliyyətin xarakterinin əsas parametrlərini müəyyənləşdirir. İqtisadi mühiti formalaşdıran amillər, əksər mənbələrdə onların təsirinin xarakterinə görə fərqləndirilir: iqtisadi mühitə birbaşa təsir edən subyektlər: dövlət, rəqiblər, istehlakçılar, malgöndərənlər, vasitəçilər (ticarət vasitəçiləri, məhsulun yeridilişinin təşkilində iştirak edən mütəxəssislər və firmalar, kredit-maliyyə qurumları, bu və ya digər dərəcədə marketinq xidməti göstərən təsisatlar); iqtisadi mühitə dolayı təsir edən texniki-texnoloji, iqtisadi, sosial, institusional xarakterli amillər.

2005-2016-cı illər ərzində sahibkar təsərrüfatlarında (bir ailəyə düşən ümumi məhsulun) və kənd təsərrüfatı müəssisələrində əmək məhsuldarlığının (bir işçiyə düşən ümumi məhsulun) müqayisəli təhlili sonuncunun daha yüksək olduğunu göstərir (şəkil 3).

Ümumiyyətlə, ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatında və ümumilikdə aqrar-ərzaq bölməsində məsrəflərin azaldılması həlledici məsələdir. Kənd təsərrüfatı məhsullarına çəkilən xərclərin strukturunda material xərclərinin 2005-ci ildən başlayaraq azalmağa meyilli olmuşdur.




**Şəkil 3. Sahibkar təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrində əmək məhsuldarlığının (bir işçiyə düşən ümumi məhsulun) dinamikası**

Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatının investisiyaya olan tələbatının ödənilməsi vəziyyəti, aqrar-ərzaq



buğda ehtiyatlarının mal-qara və quş yemi kimi istifadə edilən hissəsi əhəmiyyətli dərəcədə dəyişməmiş və 12,2-13,0% intervalında olmuşdur. Araşdırmalar əsasında demək olar ki, ölkədə buğda ehtiyatlarının mal-qara və quş yemi kimi istifadə edilən hissəsinin sabit qalmasının səbəblərinə qarışıq yem hazırlanması üzrə müəssisələrinin cüzi istehsal gücünə malik olması, onların modernləşdirilməsi prosesindəki ləngimələr nəticəsindədir.

**Cədvəl 2.**

**Buğda ehtiyatları və istifadə (faizlə)**

| | 2010 | 2014 | 2016 |
|---|---|---|---|
| İlin əvvəlinə qalıq | 25,7 | 32,1 | 25,0 |
| İstehsal | 36,3 | 36,7 | 37,9 |
| İdxal | 38,0 | 31,2 | 37,1 |
| Ehiyatlar cəmi | 100,0 | 100,0 | 100,0 |
| Toxum üçün | 4,1 | 3,1 | 3,0 |
| Yem üçün | 12,1 | 12,4 | 13,0 |
| Ərzaq məhsulları istehsalı üçün | 52,7 | 53,0 | 53,0 |
| Emal edilmədən ərzaq məhsulu kimi istifadə edilmişdir | 2,3 | 2,0 | 2,0 |
| Qeyri-ərzaq məhsullarının istehsalı üçün | 1,4 | 1,1 | 1,0 |
| İxrac | - | - | - |
| İtkilər | 6,0 | 6,0 | 6,1 |
| İlin sonuna qalıq | 21,4 | 22,4 | 22,5 |
| İstifadə cəmi | 100,0 | 100,0 | 100,0 |

**Mənbə:** Cədvəl Azərbaycanın Respublikasının statistik göstəriciləri əsasında DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Buğda ehtiyatlarının formalaşmasında və onlardan istifadədə toxum həlledici rola malikdir. Azərbaycanda toxum məqsədi ilə istifadə olunan buğdanın xüsusi çəkisi 2010-2016-cı illər ərzində azalaraq 4,2%-dən 3,0% -ə enmişdir. Sonuncu meylin daha ətraflı araşdırılmağa ehtiyac vardır. Burada təkcə onu qeyd etməyi lazım bilirik ki, toxum məqsədi ilə istifadə olunan buğdanın xüsusi çəkisinin azalması arzuolunmaz hal hesab edilən xaricdən toxum ixracı ilə əlaqədardır.

2010-2016-cı illər üzrə ölkənin keyfiyyətli bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, daxili ərzaq bazarının əsas məhsullar üzrə idxaldan asılılığının azaldılması

və dövlət tərəfindən ərzaq ehtiyatlarının yaradılması məsələlərinin həllində, xüsusilə son illər mühüm nailiyyətlər əldə edilmişdir (cədvəl 3).

**Cədvəl 3.**

**Azərbycanda bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi,**

**(faizlə)**

| | 2010 | 2015 | 2016 |
|---|---|---|---|
| Dənlilər cəmi | 56,5 | 64,5 | 63,8 |
| o cümlədən, buğda | 48,9 | 54,8 | 52,9 |
| Paxlalılar | 65,8 | 69,3 | 68,4 |
| Kartof | 100,5 | 89,1 | 85,5 |
| Bütün növ tərəvəz | 97,6 | 103,4 | 105,4 |
| Bostan məhsulları | 100,0 | 100,0 | 100,2 |
| Meyvə və giləmeyvə | 107,9 | 113,7 | 116,4 |
| Üzüm | 90,4 | 93,1 | 89,2 |
| Bütün növ mal-qara və quş əti | 87,7 | 94,7 | 87,9 |
| Süd və süd məhsulları | 70,4 | 84,3 | 87,7 |
| Yumurta | 97,9 | 99,7 | 98,8 |

**Mənbə:** Cədvəl müəllif tərəfindən hazırlanmışdır. Mənbə: Azərbaycanın ərzaq balansları. Bakı, DSK, 2015, s.74-76; Azərbaycanın ərzaq balansları .Bakı, DSK, 2017, s.72-74

Azərbaycanda tərəvəz, bostan, meyvə və giləmeyvəyə istehsalı sahələrinin ixrac potensialını yaxın perspektivdə fəallaşdırmaq imkanları kifayət qədər realdır.

Əsas növ ərzaq məhsullarının istehlak normalarına uyğun təminat səviyyəsi, həyata keçirilmiş tədqiqatlardan və faktiki rəqəm məlumatlarına əsaslanan hesablamalardan göründüyü kimi müsbət dinamikaya malikdir.

Bütün növ mal-qara və quş əti ilə özünütəminetmə səviyyəsi 2010-2016-cı illər ərzində artaraq 87,7%-dən 87,9%-ə çatmışdır. Təhlil dövrü ərzində qoyun əti ilə özünütəminetmə səviyyəsi 96,8%-dən 98,7%-ə, mal əti ilə özünütəminetmə səviyyəsi 93,0%-dən 93,5%-ə , quş əti ilə özünütəminetmə səviyyəsi artaraq 74,3%-dən 79,10%-ə çatmışdır.

Əsas növ aqroemal məhsulları (qida sənayesi məhsulları) ilə özünütəminetmə səviyyəsində fərqli meyillər müşahidə olunur. 2011- 2016-cı illər ərzində bərk buğda sortlarının əkin sahələrinin bir



qədər genişləndirilməsi hesabına makaron məmulatları istehsalı artaraq, həmin məmulatlar üzrə özünütəminetmə səviyyəsi xeyli yüksəlmişdir (şəkil 1).




**Mənbə:** Azərbaycanın ərzaq balansları. Bakı, DSK, 2017, s.76

**Şəkil 2. Əsas növ aqroemal məhsulları ilə özünütəminetmə səviyyəsi, (faizlə)**

Azərbaycanın ümumi ixracında qeyri–neft bölməsinin, o cümlədən kənd təsərrüfatının payı artmışdır. 2011-2016-cı illər ərzində aqroemal məhsulları ixracı müvafiq olaraq ölkənin qeyri-neft məhsulları ixracının 47,4 faizi və 50,0 faizi səviyyəsində olmuşdur.

Aqrar-ərzaq bölməsinin inkişafında sahibkarlıq təşəbbüs-lərinin maliyyə təminatı həlledici əhəmiyyətə malikdir. Bu istiqamətdə, xüsusilə 2012-2016-cı illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilmiş investisiya 39.628,7 milyon manat təşkil etmişdir.

Milli ərzaq təhlükəsizliyinin iqtisadi mühitini formalaşdıran iqtisadi amillərə, ilk növbədə milli iqtisadiyyatın strukturu, ayrı-ayrı sahələrin inkişafının tempi və miqyası, əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin səviyyəsi, onların ayrı-ayrı ərzaq məhsullarına və xidmətlərə tələbatı, məşğulluğun səviyyəsi və strukturu aid edilir.